

# AKADEMIK
# KAMAL ABDULLA ŞAIQ OĞLU TALIBZADƏ

## HƏYAT VƏ FƏALİYYƏTİNİN ƏSAS TARİXLƏRİ

| | |
|---|---|
| **1923, 14 avqust** | Bakı şəhərində anadan olmuşdur |
| **1930-1940** | Bakıdakı 9, sonra 14 №-li məktəbin şagirdi |
| **1940-1945** | Azərbaycan Dövlət Universitetinin filologiya fakultəsində oxumuş və oranı fərqlənmə diplomu ilə bitirmişdir |
| **1945, 2 aprel** | Azərbaycan Dövlət Universitetinin «Tərifnaməsini» almışdır |
| **1945, 25 iyun** | SSRİ Xarici İşlər Komissarlığının Qəbul Komissiyasının qərarı və Azərb.KP MK-nın Birinci katibi M.J.Bağırovun rəsmi zəmanəti ilə imtahan verib Moskva Ali Diplomatiya Məktəbinə qəbul olunmuşdur |
| **1945-1948** | Azərbaycan Elmlər Akademiyası Nizami adına Ədəbiyyat və Dil İnstitutunda aspirant |
| **1945, 25 oktyabr** | Nizami adına Ədəbiyyat və Dil İnstitutunun kiçik elmi işçisi |
| **1946-1990** | SSRİ Həmkarlar İttifaqının üzvü |
| **1947-1990, 27 yanvar** | Sovet İttifaqı Kommunist Partiyasının üzvü |
| **1948, 11 yanvar** | Bakı şəhəri Voroşilov Rayon Sovetinin 33-cü dairəsindən deputat seçilmişdir |
| **1949, 10 iyun** | ADU-nun Elmi şurasında «Abbas Səhhətin həyat və yaradıcılığı» mövzusunda dissertasiya müdafiə etmişdir |
| **1949, 17 noyabr** | Nizami adına Ədəbiyyat və Dil İnstitutunun baş elmi işçisi |
| **1949** | Nizami adına Ədəbiyyat və Dil İnstitutu Elmi şurasının üzvü |
| **1950-1952** | Azərbaycan Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı kafedrasında müəllim |
| **1952-1960** | Nizami adına Ədəbiyyat və Dil İnstitutunda şöbə müdiri |
| **1953, 21 iyul** | Baş elmi işçi elmi adı verilmişdir |
| **1953, yanvar** | Azərbaycan Yazıçılar İttifaqının üzvü |
| **1954 – bu günədək** | Azərbaycan Yazıçılar Birliyi İdarə heyətinin üzvü |
| **1957-1975** | Azərbaycan Yazıçılar Birliyi tənqid və ədəbiyyatşünaslıq bölməsinin rəhbəri |
| **1957-1976** | «Müasir dövrdə dünya ədəbiyyatının inkişaf qanunauyğunluqları» Respublika Əlaqələndirmə şurasının sədr müavini və sədri olmuşdur |
| **1960-1981** | Nizami adına Ədəbiyyat və Dil İnstitutunun elmi işlər üzrə dirktor müavini |
| **1965, 29 aprel** | ADU-nun Elmi şurasında filologiya elmləri doktoru alimlik dərəcəsi almaq üçün «XX əsrin əvvəllərində Azərbaycan ədəbi tənqidi» mövzusunda dissertasiya müdafiə etmişdir |
| **1965-1976** | Azərbaycan Yazıçılar İttifaqı Rəyasət heyətinin üzvü |
| **1966, 17 may** | S.Vurğunun anadan olmasının 60 illiyinə həsr olunmuş Ümumbakı elmi sessiyasında «S.Vurğunun ədəbi-tənqidi görüşləri» mövzusunda məruzə etmişdir |
| **1967** | Azərbaycan Elmlər Akademiyasında Cəlil Məmmədquluzadənin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi sessiyada «Molla Nəsrəddin curnalının ədəbi mövqeyi» mövzusunda məruzə etmişdir |
| **1968, 2 fevral** | Azərbaycan EA Rəyasət heytinin qərarı ilə «Müasir dövrdə dünya ədəbiyyatının inkişaf qanunauyğunluqları» Problem Şurasının sədri təyin edilmişdir |
| **1968, 14 fevral** | Azərbaycan «Bilik» cəmiyyətinin «Fəxri fərmanını» almışdır |
| **1968, 16 fevral** | Azərbaycan EA-nın Rəyasət heyətinin qərarı ilə Nizami adına Ədəbiyyat və Dil İnstitutunun direktoru vəzifəsini icra etmişdir |
| **1969, 4 iyun** | Azərbaycan EA-nın Əlaqələndirmə Şurasının «Azərbaycan ədəbiyyatında realizm» probleminə həsr olunmuş Ümum Respublika müşavirəsində «XX əsr Azərbaycan tənqidində realizm» mövzusunda məruzə etmişdir |
| **1969** | Azərbaycan «Bilik» cəmiyyətinin Bakı şöbəsinin Ədəbiyyat və İncəsənət Metodik Şurasının sədri |

| | |
|---|---|
| **1970, 31 mart** | SSRİ Ali Sovetinin «Əmək igidliyinə görə» medalı ilə təltif olunmuşdur |
| **1971** | Azərbaycan KP MK-nın orqanı «Azərbaycan Kommunisti» curnalı redaksiya heyətinin üzvü |
| **1971, 1 iyun** | Azərbaycan Yazıçılarının V qurultayında «Azərbaycan sovet tənqidi və ədəbiyyatşünaslığı son beş ildə» mövzusunda məruzə etmişdir |
| **1972, 18 aprel** | Nizami adına Ədəbiyyat İnstitutunun elmi sessiyasında «N.Nərimanov və XX əsr Azərbaycan tənqidi» mövzusunda məruzə etmişdir |
| **1972, 19 iyul** | SSRİ AAK-n qərarı ilə «Professor» elmi adı verilmişdir |
| **1972** | Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutunun Müdafiə Şurasının sədr müavini. |
| **1972, 17 oktyabr** | Azərbaycan SSR EA-da Əlaqələndirmə şurasının Sovet Şərqi xalqlarının ədəbiyyatlarında realizm problemi müşavirəsində «Azərbaycan ədəbiyyatşünaslığında Şərq realizmi problemləri» mözusunda məruzə etmişdir |
| **1972, 18 dekabr** | Azərbaycan EA-da A.Səhhətin anadan olmasının 100 illiyinə həsr olunmuş elmi sessiyada «A.Səhhətin naməlum satiraları» mövzusunda məruzə etmişdir. |
| **1974, 20 dekabrda** | Azərbaycan Yazıçılar İttifaqı, Azərbaycan SSR «Bilik» Jəmiyyəti və Nizami adına Ədəbiyyat İnstitunun Abbas Səhhətin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş elmi-ədəbi yığıncaqda giriş sözü demişdir. |
| **1974, 27 dekabr** | Azərbaycan Yazıçılar İttifaqı və Respublika Teatr cəmiyyətinin A.Səhhətin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş təntənəli yubiley gecəsində şair haqqında məruzə etmişdir |
| **1976-1987** | Azərbaycan Sovet Ensiklopediyası dil və ədəbiyyat elmi redaksiyasının üzvü |
| **1976, 31 mart** | Azərbaycan SSR EA-nın M. Ə. Əzizbəyovun anadan olmasının 100 illik yubileyinə həsr olunmuş yubiley elmi sessiyasında «Bədii ədəbiyyatda M. Əzizbəyovun obrazı» mövzusunda məruzə etmişdir. |
| **1976, 26 iyun** | Azərbaycan EA-da S. Vurğunun 70 illiyinə həsr olunmuş yubiley elmi sessiyasında «Sənətkarın şəxsiyyəti» mövzusunda məruzə etmişdir |
| **1977** | Neapol şəhərində keçirilən Azərbaycan günlərində iştirak etmək üçün Azərbaycan nümayəndə heyəti tərkibində İtaliyaya getmiş, Roma, Milan, Florensiya, Venesiya, Pompey şəhərlərindəki rəsmi görüşlərdə olmuşdur |
| **1977, 23 noyabr** | İtaliyanın Neopol şəhərinin Şərqşünaslıq Universitetində «Azərbaycan ədəbiyyatının tarixi mərhələləri» mövzusunda məruzə etmişdir |
| **1977, 26 oktyabr** | Azərbaycan EA-nın elmi sessiyasında «Azərbaycan sovet ədəbiyyatşünaslığının inkişaf mərhələləri» mövzusunda məruzə etmişdir |
| **1977-ci ildən bu günədək** | İctimai-siyasi Tədqiqatlar və İnformasiya İnstitunun Elmi şurasının üzvü |
| **1978, 11 sentyabr** | Azərbaycan EA və Azərbaycan Yazıçılar İttifaqının keçirdiyi yığıncaqda «L.N.Tolstoy və XX əsrin əvvəllərində Azərbaycan ədəbi fikri» mövzusunda məruzə etmişdir |
| **1979, 21 may** | Nizami adına Ədəbiyyat İnstitunda Mehdi Hüseynin anadan olmasının 70 illik yubileyinə həsr olunmuş elmi sessiyada giriş sözü demişdir |
| **1980-1986** | Nizami adına Ədəbiyyat İnstitutunda Tənqid tarixi və nəzəriyyəsi şöbəsinin müdiri |
| **1980, 7 fevral** | SSRİ EA Rəyasət heyətinin qərarı ilə Sovet Türkoloqları Komitəsinin üzvü |
| **1980, 20 mart** | Azərbaycan SSR Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir. |
| **1980-bu günədək** | Azərbaycan EA Ədəbiyyat, Dil və İncəsənət bölməsinin üzvü |
| **1981, 2 iyun** | Nizami adına Ədəbiyyat İnstitunun elmi işlər üzrə direktor müavini vəzifəsindən öz xahişi ilə azad edilmişdir |
| **1981, 20 oktyabr** | Azərbaycan EA-da Mirzə İbrahimovun anadan olmasının 70 illiyinə həsr olunmuş elmi sessiyada «M. İbrahimovun ədəbi görüşlərində ədəbi irs problemi» mövzusunda məruzə etmişdir |
| **1982, 29 dekabr** | Azərbaycanın əməkdar elm xadimi fəxri adı almışdır |
| **1983, 30 sentyabr** | Nizami adına Ədəbiyyat İnstitutu və Azərbaycan Yazıçılar İttifaqı birlikdə anadan olmasının 60 illiyinə həsr olunmuş yubiley yığıncağı keçirmişdir |
| **1983, 10 oktyabr** | «Qabaqcıl maarif xadimi» adı verilmişdir |
| **1984, 6 aprel** | Azərbaycan EA «Xəbərləri»nin /Ədəbiyyat, Dil və İncəsənət seriyası / baş |

| | |
|---|---|
| | redaktorunun müavini təsdiq edilmişdir |
| **1984, 13 iyun** | Azərbaycan EA və Azərbaycan Yazıçılar İttifaqının akademik Məmməd Arifin anadan olmasının 80 illik yubileyinə həsr olunmuş elmi sessiyada «Görkəmli tənqidçi, ictimai xadim» mövzusunda məruzə etmişdir |
| **1984, 31 oktyabr** | SSRİ Ali Soveti Rəyasət heyətinin qərarı ilə «Əmək veteranı» medalı ilə təltif olunmuşdur |
| **1984, 1986** | Azərbaycan Pedaqoci İnstitutunun Azərbaycan ədəbiyyatı kafedrasının professoru |
| **1985, 3 aprel** | Azərbaycan SSR «Bilik» cəmiyyətinin «Fəxri fərman»ı verilmişdir |
| **1986, 26 aprel** | «Azərbaycan ədəbi tənqidinin tarixi» kitabına görə Azərbaycan SSR Dövlət Mükafatı Laueratı adı almışdır |
| **1986, avqust-sentyabr** | Sovet-Hindistan dostluğu günlərində iştirak etmək üçün nümayəndə heyətinin başçısı kimi Hindistana getmiş, Dehli, Bombey, Kəlküttə və s. şəhərlərdə rəsmi görüşlər keçirmişdir |
| **1986,** | SSRİ-Hindistan dostluğu günlərində Dehli yaxınlığındakı ali təhsil şəhərciyində «Azərbaycan-Hindistan ədəbi-mədəni əlaqələri» mövzusunda məruzələr etmişdir |
| **1987, 18 mart** | Türkmənistan EA-nın Maxtımqulu adına Dil və Ədəbiyyat İnstitutunun nəzdindəki doktorluq müdafiə şurasının üzvü |
| **1987** | Azərbaycanın «Əmək veteranı» medalı verilmişdir |
| **1987** | Oktyabr İnqilabının 70-illiyi münasibətilə fəxri fərman almışdır |
| **1989, 30 iyun** | Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü / akademiki / seçilmişdir |
| **1990, 26 yanvar** | 20 yanvar hadisəsindən sonra Sovet İttifaqı Kommunist Partiyası sıralarını tərk etmişdir |
| **1990, 28 may** | Türkiyənin Kaysarı şəhərində keçirilən Birinci Böyük Millətlərarası Konqresdə «XX əsrin əvvəllərində Azərbaycan ədəbi tənqidnin əsas cərəyanları / 1900-1920-ci illər /» mövzusunda məruzə etmişdir |
| **1990, 3 iyun** | Türk Dünyası Araşdırmaları Vəqfinin I Millətlərarası Böyük Azərbaycan Konqresi Təşkilat Komitəsinin fəxri diplomunu almışdır |
| **1991** | Abdulla Şaiqin Mənzil-Muzeyinin direktoru |
| **1991, 1 aprel** | Azərbaycan EA-da «Beynəlxalq Azərbaycan mühacirət ədəbiyyatı» simpoziumunda «Azərbaycan ədəbi-tənqidi fikri türk mühacirəti mətbuatında» mövzusunda məruzə etmişdir |
| **1991, 16 oktyabr** | Azərbaycan EA-nın akademiki Mirzə İbrahimovun anadan olması 80 illiyinə həsr edilmiş elmi sessiyada «Yazıçı-vətəndaş» mövzusunda məruzə etmişdir |
| **1991** | İranın Məşhəd şəhərində İmam Rzanın məğbərəsini ziyarət etmişdir. |
| **1991** | Təbriz Universitetində keçirilən Nizaminin anadan olmasının 850 illiyinə həsr olunmuş Konqresdə «Nizaminin ədəbi təlimi» mövzusunda məruzə etmişdir. |
| **1992, 17 fevral** | Abdulla Şaiqin Mənzil-Muzeyi Elmi şurasının sədri |
| **1992, 26 may** | «Simurğ» Azərbaycan mədəniyyət Assosiyasının Respublika elmi-praktik seminarında «Müasir Azərbaycan-türk ədəbiyyatşünaslığında milli özünüdərk və totalitarizmin inkarı» mövzusunda məruzə etmişdir |
| **1993, 14 aprel** | Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində Kamal Talıbzadənin 70 illik yubileyinə həsr olunmuş «Alimdir gözumdə ən uca insan» adlı görüş keçirilmişdir |
| **1993** | Nizami adına Ədəbiyyat İnstitutunda anadan olmasının 70 illiki yubileyi keçirilmişdir. |
| **1993, 15 sentyabr** | Azərbaycan Elmlər Akademiyasının Fəxri fərmanı ilə təltif olunmuşdur |
| **1994** | Muzey işi üzrə Respublika Elmi Metodiki Mərkəzin üzvü |
| **1994** | YUNESKO-nun nəzdində Beynəlxalq Muzeylər Şurası Azərbaycan Milli Komitəsinin üzvü |
| **1994** | Azərbaycan Alimlər İttifaqının üzvü |
| **1994-bu günədək** | Azərbaycan Elmlər Akademiyasının məşvərətçisi. |
| **1995, 21 aprel** | Azərbaycan EA-da Əhməd Ağa oğlunun anadan olmasının 125 illiyinə həsr olunmuş elmi konfransda məruzə etmişdir |
| **1995, oktyabr-noyabr** | Füzulinin anadan olmasının 500 illiyinə həsr olunmuş Tehran konfrasında «XX əsrin əvvəllərində Azərbaycan ədəbi fikri və Füzuli» mövzusunda məruzə |

| | |
|---|---|
| | etmişdir |
| **1996, 7 noyabr** | Azərbaycan EA-da M. Füzulinin 500 illik yubileyinə həsr edilmiş Beynəlxalq Simpoziumda «Füzuli XX əsr Azərbaycan ədəbi tənqidində» mövzusunda məruzə etmişdir |
| **1996, 11iyun** | Azərbaycan Respublikası Nazirlər Kabinetinin yanında Dövlət Ali Ekspert Komissiyası Konfransında «Özəl təhsil sistemində tələbələrin mənəvi tərbiyəsinin bəzi problemləri» mövzusunda məruzə etmişdir |
| **1997, 17 sentyabr** | Füzuli adına Beynəlxalq Mükafat Komissiyasının üzvü. |
| **1997** | Azərbaycan Yazıçılar Birliyinin Ağsaqqallar Şurasının üzvü |
| **1997, 20 aprel** | «Kitabi Dədə Qorqud» dastanının 1300 illik yubileyinə hazırlıqla əlaqədar Dövlət Təşkilat Komissiyasının üzvü |
| **1997** | Nizami adına Ədəbiyyat İnstitunda 1937-ci il Sovet repressiyasının 60 illiyinə həsr olunan elmi sessiyada «Repressiyanın A. Şaiq ailəsinin üzvlərinə qarşı yönəldilməsi halları» mövzusunda məruzə etmişdir |
| **1998, 2 noyabr** | Azərbaycan Universiteti Elmi şurasının qərarı ilə «Azərbaycan Universitetinin Fəxri professoru» adı verilmişdir |
| **1998, 4 noyabr** | Azərbaycan Curnalist Həmkarlar İttifaqı Rəyasət həyətinin fərmanı ilə Kamaliyyə diplomu verilmişdir |
| **1998, 4 noyabr** | Azərbaycan Curnalist İttifaqının «Qızıl qələm» mükafatı verilmişdir |
| **1998** | Anadan olmasının 75 illiyi münasibətilə Azərb. EA Rəyasət heyətinin fəxri fərmanını almışdır |
| **1998, 14 avqust** | Azərbaycan Respublikasının «Şöhrət ordeni» ilə təltif olmuşdur |
| **1998** | Ali-İctimai-Siyasi Kollecdə filologiya kafedrasının müdiri |
| **1998, 4 noyabr** | Azərbaycan EA-da anadan olmasının 75 illik yubileyinə həsr olunmuş təntənəli yubiley yığıncağı keçirilmişdir |

**Şamil Salmanov**
*Filologiya elmləri doktoru*

# KAMAL ABDULLA ŞAİQ OĞLU TALIBZADƏ

Başa çatmaqda olan iyirminci yüzillik ədəbiyyatımızın tarixində bir çox yeni xüsusiyyətləri və meylləri ilə birlikdə bir də ədəbiyyatşünaslığın, ədəbi tənqidin və nəzəriyyənin milli ədəbi prosesdə, milli düşüncənin inkişafında rolunun artması, müstəsna miqyasda və vüsətdə fəallaşmasıilə əlamətdardır. Ədəbiyyatşünaslığın bu mövqeyi isə ilk növbədə bu sahədə uzun illər fəaliyyət göstərmiş, özünü bütünlüklə ədəbiyyatımızın öyrənilməsi, tərəqqisi vəzifəsinə həsr etmiş şəxsiyyətlərin, neçə-neçə ədəbiyyatşünaslar nəslinin əməyi, yaradıcılığı ilə bilavasitə bağlıdır. Azərbaycan ədəbiyyatşünaslığının belə nəsillərindən biri əsrin ortalarında, ənənəvi təbirlə desək, ikinci dünya müharibəsindən sonrakı illərdə yetişmişdir ki, akademik Kamal Talıbzadə də bu nəsil ədəbiyyatşünaslarından biridir. K.Talıbzadə ədəbiyyatşünaslığımızda yarım əsrdən çox bir müddətdir ki, fasiləsiz, aramsız fəaliyyət göstərir, onun bu fəaliyyəti son dərəcə çoxcəhətli və əhatəlidir. Azərbaycan ədəbiyyatı tarixinin öyrənilməsinin ən fundamental problemləri və vəzifələri K.Talıbzadənin tədqiqatlarında, ədəbi-tənqidi əsərlərində və kitablarında öz həllini, tədqiqini tapmışdır ki, bu əməyi və mövqeyinə görə K.Talıbzadə müasir Azərbaycan ədəbiyyat elminin, ədəbi tənqidinin canlı klassiki hesab edilə bilər.

Kamal Abdulla Şaiq oğlu Talıbzadə 1923-cü ildə avqust ayının 14-də Bakı şəhərində doğulmuşdur. O, uşaqlıqdan ədəbiyyat, sənət mühütində böyümüş və tərbiyələnmişdir. Atası Abdulla Şaiq Azərbaycan ədəbiyyatının görkəmli klassiklərindən biridir. Azərbaycanda romantizm ədəbi hərəkatının meydana çıxmasında və inkişafında, ideya-estetik prinsiplərinin təsdiqində A.Şaiq yaradıcılığının, Şaiq sənətinin rolu böyük və müstəsnadır. Azərbaycan ziyalılarının böyük bir nəsli A.Şaiq məktəbindən çıxmışdır. Yazıçılıqla yanaşı A.Şaiqin həm də tənqidçi və ədəbiyyatşünas olduğu məlumdur. Onun M.F.Axundov, H.Javid haqqında, ədəbiyyat tariximiz haqqında profesional səviyyədə yazılmış məqalələri və tədqiqatları vardır. A.Şaiq ədəbiyyat dərsliklərinin, ədəbiyyat nəzəriyyəsi kitabının müəllifidir.

K.Talıbzadə 1930-cu ildə Bakının 9 №li məktəbinə daxil olmuş və ibtidai təhsilini orada almışdır. Onun bu məktəbdə ilk müəllimi məşhur qəzəl şairi Məşədi Azər Buzovnalı olmuşdur. Alim öz müəllimini minnətdarlıq hissi ilə xatırlayaraq Buzovna mədəniyyət sarayında (1984-cü ildə) şairin yubileyinə həsr olunmuş xatirə gecəsindəki çıxışında belə demişdir: «Mənim üçün bu gün çox əziz günlərdən biridir, əlamətdar günlərdən biridir. Hər şeydən əvvəl ona görə ki, Azər müəllim-biz ona belə müraciət edərdik-mənim ilk müəllimim olub. Bizim o müraciət mənasında işlətdiyimiz «müəllim» mənasında yox, sözün həqiqi mənasında o, mənim müəllimim olub. Düz əlli dörd il əvvəl -1930-cu ildə mən birinci dəfə birinci sinfə daxil olanda onu ilk müəllimim kimi görmüşəm. Mənə qələm tutmağı, yazı yazmağı, ilk dəfə insan üçün əziz olan «ana», «vətən» sözlərini yazmağı o öyrədib. Mənim üçün bu gün bir də ona görə əzizdir ki, biz bu maraqlı yaradıcılıq yolu keçmiş bir şairin- Azər Buzovnalının xatirəsini yad etməyə yığışmışıq».

Orta məktəbi bitirdikdən sonra, 1940-cı ildə K.Talıbzadə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə daxil olmuş, 1945-ci ildə universitetdə təhsilini başa çatdırmışdır. 1945-ci ilin yazında «M.Hadi və Azərbaycan romantizmi» mövzusunda diplom işini müvəffəqiyyətlə müdafiə etmiş, fərqlənmə diplomu ilə universiteti bitirmişdir. Vaxtından əvvəl diplom işi müdafiə etməsinin səbəbi isə Azərbaycan KP Mərkəzi Komitəsinin fərdi rəsmi təqdimatı ilə onun Moskva Ali Diplomatiya Məktəbinə göndərilməsi ilə əlaqədar olmuşdur. O, mandat komissiyasının qərarı ilə məktəbin İran şöbəsinə qəbul olunmuşdur. Lakin Moskva Ali Diplomatiya məktəbində oxumaq K.Talıbzadəyə nəsib olmamışdır. Vaxtı ilə atası A.Şaiqin altı il ailəsi ilə birlikdə İranda yaşadığından K.Talıbzadə diplomatiya məktəbinə qəbul edilmir və beləliklə, tale onu həmişəlik olaraq ədəbiyyata, böyüyüb başa çatdığı ailənin, ocağın ənənəsinə qaytarır. Moskvadan qayıtdıqdan sonra K.Talıbzadə o vaxt Nizami adına Ədəbiyyat İnstitutunun direktoru işləyən Məmməd Arifin tövsiyyəsi ilə imtahan verib institutun aspiranturasına qəbul edilir, elə həmin vaxt yəni 1945-ci ilin payızında həm də İnstitutda kiçik elmi işçi vəzifəsinə işə götürülür. Bununla da K.Talıbzadənin bütün şüurlu həyatı birdəfəlik olaraq Ədəbiyyat İnstitutu ilə bağlanır və bu əlaqə yarım əsrdən artıqdır ki, müvəffəqiyyətlə davam edir. Aspiranturada oxuyarkən o, professor Mir Jəlal Paşayevin elmi rəhbərliyi altında «A.Səhhətin həyatı və yaradıcılığı» mövzusunda namizədlik dissertasiyası üzərində işləmiş, 1949-cü ildə onu müdafiə etmişdir. Və bu vaxtdan etibarən də onun elmdə, ədəbiyyatşünaslıqda böyük, səmərəli yolu başlanır.

K.Talıbzadənin ədəbiyyatşünaslıq fəaliyyəti Ədəbiyyat İnstitutunun elmi-tədqiqat problemləri ilə sıx surətdə inkişaf etmiş və şaxələnmişdir. O, bu elm ocağında, nəinki ədəbiyyatşünaslığın mühüm, fundamental, ədəbi prosesin irəli sürdüyü, zəruriləşdiyi problemləri üzərində tədqiqat aparmış, əsərlər

yazmış, həm də ədəbdiyyatşünaslığa bilavasitə rəhbərlik etmiş, onun ideya-təşkilati vəzifələrinin müvəffəqiyyətli həllinə bütün qüvvə və bacarığı ilə təsir göstərmişdir, iri miqyaslı elmi təşkilati tədbirlərdə fəal çalışmışdır. Namizədlik dissertasiyası müdafiə etdiyi ildə İnstitutun baş elmi işçisi vəzifəsinə keçirilmiş, 1952-ci ildə institutun XIX-XX əsrlər Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri vəzifəsinə təyin olunmuşdur. 1960-cı ildə isə institutun elmi işlər üzrə direktor müavini vəzifəsinə irəli çəkilmiş, iyirmi ildən çox bu məsul vəzifədə çalışmış, institutda elmi işlər, elmi tədqiqat planlarının müəyyən edilməsi və icrası kimi çox mürəkkəb bir prosesə birbaşa rəhbərlik etmişdir. Məlumdur ki, Ədəbiyyat İnstitutu bir müddət Elmlər Akademiyası sistemində Ədəbiyyat və Dil İnstitutu kimi fəaliyyət göstərmişdir. Bu vaxtlarda İnstitut direktorunun elmi işlər üzrə iki müavini – ədəbiyyat və dilçilik üzrə müavinləri olurdu. Belə struktur daxilində əslində hər bir sahəyə müvafiq sahənin direktor müavini rəhbərlik edirdi. Qeyd etmək lazımdır ki, bu illərdə ədəbiyyat üzrə direktor müavini kimi fəaliyyət göstərən K.Talıbzadə də institutun ədəbiyyatşünaslıq istiqamətlərini və problemlərini müəyyən edir, bu problemlərin ayrı-ayrı mövzularını konkretləşdirir, həlli yollarını və metodologiyası işlərinə səmərəli surətdə rəhbərlik edirdi. O da qeyd olunmalıdır ki, K.Talıbzadənin həm şöbə müdiri, həm də direktor müavini işlədiyi dövrdə institutda çox mühüm ədəbiyyatşünaslıq əsəri - üç cildlik «Azərbaycan ədəbiyyatı tarixi» yazılmış və nəşr edilmişdir. Bu fundamental əsərin ikinci cildi isə K.Talıbzadənin bir tədqiqatçı və elmi iş təşkilatçısı kimi fəaliyyətinin əsas istiqaməti və predmeti ilə bilavasitə bağlı olmuşdur. O, cild üzərində həm müəlif kimi, həm də redaktorlardan biri kimi işləmişdir. 1968-ci ildə K.Talıbzadə müvəqqəti olaraq İnstitutun direktoru vəzifəsini də icra etməli olmuşdur. Bununla yanaşı K.Talıbzadə respublikanın bəzi ali məktəblərində də mühazirə oxumuşdur. 1950-52-ci illərdə Azərbaycan Dövlət Universitetində, 1984-86-cı illərdə isə Azərbaycan Dövlət Pedaqoci İnstitutunda Azərbaycan ədəbiyyatı və ədəbi tənqid fənnlərindən dərs demiş, mühazirələr oxumuşdur. Son illərdə isə pedaqoci fəaliyyətini Ali ictimai-siyasi kollecdə davam etdirir; ədəbiyyat və dil kafedrasının müdiri olduğu bu tədris müəssisəsində Azərbaycan ədəbi-estetik fikir tarixi kursunu aparır. Ədəbiyat İnstitutunda isə əvvəlcə “Tənqid tarixi və nəzəriyyəsi” şöbəsinin müdiri, 90-cı illərdən etibarən akademik-məsləhətçi vəzifəsində çalışır, bütün fəaliyyəti ilə qırılmaz tellərlə bağlı olduğu, «Yeni dövr /XIX və XX əsrin əvvələri/ ədəbiyyatı» şöbəsində təşkil olunmuş Azərbaycan ədəbi tənqidi materiallarının toplanılması və nəşri qrupuna rəhbərlik edir. Eyni zamanda K.Talıbzadə doğulduğu və boya-başa çatdığı mənzildə, bilavasitə özünün səyi və təşəbbüsü ilə təşkil olunan Abdulla Şaiqin mənzil muzeyində 1991- ci ildən direktor vəzifəsində də yorulmadan çalışır.

Müasir ədəbiyyatşünaslıq eliminin mötəbər simalarından biri kimi K.Talıbzadənin fəaliyyəti yalnız yarım əsrdən çox işlədiyi İnstitutla, buradakı tədqiqatçılıq əməyi ilə məhdudlaşmır. O, respublikanın ədəbi-elmi yaradıcılıq həyatında da daima fəal iştirak edən alim və ziyalıdır. Müxtəlif illərdə «Müasir dövrdə Dünya ədəbiyyatının inkişaf qanunauyğunluqları respublika Əlaqələndirmə Şurasının» sədr müavini /1957-1976 /, sonra isə sədri, Azərbaycan EA Rəyasət Heyətinin nəzdində elmi kadrların hazırlığı şurasının, ictimai elmlər üzrə elmi məlumat mərkəzi elmi şurasının üzvü /1973-1974 /, Ədəbiyyat institutun elmi şurasının sədr müavini /1960-1981/ olmuşdur. Ədəbiyyatşünas və tənqidçi kimi K.Talıbzadə Azərbaycanın ədəbi prosesində də fəal iştirak edən şəxslərdən biridir. O, uzun müddət Azərbaycan Yazıçılar İttifaqının Rəyasət Heyətinin üzvü /1965-1976/, İttifaqın tənqid və ədəbiyyatşünaslıq bölməsinin rəhbəri /1957-1975/ olmuşdur. Müxtəlif illərdə «Azərbaycan kommunisti», «Azərbaycan», «Azərbaycan EA Xəbərləri» /və s. curnallarının redaksiya heyətlərinin, Azərbaycan Ensiklopediyası elmi şürasının və s. üzvü olmuşdur. Dəfələrlə xarici ölkələrdə olmuş, elmi simpoziumlarda maraqlı çıxış və məruzələrlə iştirak etmişdir.

K.Talıbzadə indi də-ömrünün müdriklik çağında da elmi, ədəbi və ictimai fəaliyyətdən uzaqlaşmamışdır; yenə də eyni şövq, ilham və vətəndaşlıq ehtirası ilə çalışır, fəaliyyət göstərir, aspirantlara rəhbərlik edir, ədəbiyyatşünaslığın, ictimai elmlərin mühüm məsələlərinin müzakirəsində, miqyaslı tədbirlərin və proqramların həllində, gerçəkləşməsində fikir və mülahizələri ilə, görüşləri və qənaətləri ilə yaxından iştirak edir, onların həlli yollarının axtarılıb tapılmasına real kömək göstərir və alimin bu çoxcəhətli, uzunillik fəaliyyəti barədə düşünəndə istər-istəməz onun bir ziyalı, bir elm xadimi, bir ədəbiyyatşünas kimi, müdrik şəxsiyyət kimi çox nəcib insani keyfiyyətini-seçdiyi ixtisasa bütün varlığı ilə bağlılığını, xalqımızın ədəbi və mənəvi dəyərlərinə sədaqətini, əqidə və məslək sahibi olmasını qeyd etməyə bilmirsən. Müsahibələrinin birində K.Talıbzadə demişdir: «Ədəbi təcrübəmdə bu qənaətə gəlmişəm ki, bizim sahədə (yəni ədəbiyyatşünaslıqda - S.Ş.) tutarlı mövqe qazanmaq, ədəbi prosesə təsir göstərmək məqamına yüksəlmək üçün, hər şeydən əvvəl,möhkəm əqidə, məslək sahibi olmaq lazımdır. Təkcə istedad həmişə lazımi nəticə vermir. İnsan var ki, daxilən zəngindir, emosionaldır, ümumən istedadlıdır, ancaq öz daxili zənginliyini günün tələbləri, xalqın ehtiyacları ilə, zamanla əlaqələndirə bilmir. Bu vacib harmoniya-əsasların əsası olan harmoniya onun fəaliyyətində pozulur, görsənmir, bu halda daxili zənginlik böyük praktiki fayda gətirmir, ümumi ictimai akta çevrilmir, ictimai yüksəliş ləngləşir, bəzən isə bir nöqtədə dayanır. Səhhətin məşhur iki misrasını yada salmaq istəyirəm:

Şişə çəksən də diriykən ətimi
Atmaram mən vətənü millətimi.

Əqidəyə, məsləyə möhkəm inam insanı fəallaşdırır, fəaliyyətini istiqamətləndirir. Əmək qabiliyyətini artırır, ilhamlı bir yaradıcılığın yaranması üçün şərait yaradır». Bu sözlər, fikirlər son dərəcə çox gözəl, doğru sözlər və fikirlərdir, onlara heç nə əlavə etmək lazım olmasa da, bir cəhəti K.Talıbzadənin yaradıcılığında bu sözlərin söz olaraq qalmadığını, səmərəli fəaliyyətinin mənəvi əsasları və nəticələri olduğunu qeyd etmək lazım gəlir. K.Talıbzadə sadəcə ədəbiyyatşünas, tədqiqatçı deyildir; o, bu sənətin, bu fəaliyyətin dərin mənasını başa düşən alim və tədqiqatçıdır. Onun bütün tədqiqatları bir pafosla-ədəbiyyatşünaslığın vəzifələrinə sədaqət hissi ilə aşılanmış yaradıcılıqdır.

Akademik Kamal Talıbzadə yarım əsrdir ki, Azərbaycan ədəbi tənqidi və ədəbiyyatşünaslığı sahəsində yorulmadan çalışır və bu müddət ərzində o, bütün fəaliyyətini milli ədəbi-nəzəri fikir ilə üzvü surətdə əlaqələndirərək ədəbiyyatşünaslığın miqyaslı, təməl vəzifələrinin realizəsinə sərf etmişdir. O, istisnasız olaraq bütün tədqiqatlarında milli ədəbiyyatşünaslığın əsas etibarilə köklü problem və vəzifələrinin həllini gerçəkləşdirmişdir. Realizm və romantizm, bu ədəbi məktəblərin milli ədəbi-tarixi prosesdə inkişafı, ədəbi əlaqə K.Talıbzadənin tədqiq etdiyi başlıca problemlərdəndir. Və çox səciyyəvidir ki, bu çoxcəhətli ədəbi-nəzəri problemləri o, daha çox XX əsr ədəbiyyatının təcrübəsi və materialı əsasında araşdırmışdır. Lakin bununla belə K.Talıbzadənin müasir ədəbiyyatşünaslıqda yerini onun milli ədəbi tənqidin tarixini yaratmaq istiqamətində apardığı çoxcəhətli tədqiqatlar təşkil etdiyini demək mümkündür. Və buna əsasən də bir mənalı etiraf etmək lazımdır ki, Azərbaycan tənqidinin tarixini öyrənmək sahəsində akademik K.Talıbzadənin rolu və xidmətləri həqiqətən müstəsnadır. Belə ki, ədəbiyyatın xüsusi və müstəqil bir canrı səviyyəsində ədəbi tənqidin tarixini yaratmaq vəzifəsini çağdaş ədəbiyyatşünaslıqda və ədəbi-nəzəri fikirdə həyata keçirməklə K.Talıbzadə milli ədəbiyyatşünaslıqda yeni bir istiqamət yaratmışdır.

K.Talıbzadə ədəbi-tarixi prosesi araşdırarkən öz tədqiqat vəzifəsini yalnız konkret materialın ideya-tarixi mənasını göstərməklə məhdudlaşdıran ədəbiyyatşünaslardan deyildir. Əksinə o, milli ədəbiyyatın tarixini öyrənərkən əsərlərinin tədqiqat nəticələri və ideyaları ilə eyni zamanda bütövlükdə ədəbiyyatşünaslığı mühüm və miqyaslı nəzəri-metodoloci ümumiləşdirmələrlə zənginləşdirmişdir ki, bu nəzəri ümumiləşdirmələr də öz növbəsində müasir ədəbiyyat elminin inkişafına əhəmiyyətli dərəcədə təsir göstərmiş, onun yeni yollarını müəyyənləşdirmişdir.

* * *

K.Talıbzadə Azərbaycan ədəbiyyatının müxtəlif məsələlərinin tədqiqi ilə məşğul olan ədəbiyyatşünasdır. Klassik irslə yanaşı onun əsərlərində, tədqiqatlarında müasir ədəbiyyat məsələləri də geniş və əhəmiyyətli yerlərdən birini tutur. O, demək olar ki, bütün fəaliyyəti boyu ədəbiyyat tarixi və problemlərini müasir ədəbiyyatın məsələləri ilə paralel öyrənmək, mümkün qədər bu sahələri yaradıcılığında dolğun əks eidirmək yolu ilə getmişdir. Buna görə K.Talıbzadənin simasında yalnız ədəbiyyat tarixçisini görmək azdır və birtərəfli olardı. O, həm də çox mötəbər müasir tənqidçilərdən biridir.

K.Talıbzadə tənqidlə sıx, üzvi olaraq bağlı şəxsiyyətdir. Onun tədqiqatçılıq axtarışları, səyləri ədəbi prosesin ümumi axarında müasir tənqidin kontekstində formalaşmışdır, dərinləşmiş və inkişaf etmişdir. Monoqrafiyaları tənqidi mənəvi cəhətdən, tarixi təfəkkür cəhətdən zənginləşdirmiş və silahlandırmışdır. Bunsuz tənqid heç vaxt inkişaf edə bilməz, ədəbiyyatda funksiyasını yerinə yetirə bilməz. Lakin bununla belə əsərlərinin, kitablarının məhz tədqiqat, məhz ədəbiyyatşünaslıq hadisəsi olaraq meydana çıxması da danılmazdır. Və bu cəhət onun ədəbiyyatşünas kimi əsas fərdiliyidir, əsas xüsusiyyətidir. Ədəbiyyatşünaslıq ədəbiyyatla, ədəbi tənqidlə birlikdə böyük, misilsiz sosial və estetik-fəlsəfi funksiyanı reallaşdırır, həyata keçirir. Ədəbiyyatşünaslıq tədqiqatları tənqidin, ədəbi prosesin tarixiliyə, tarixi təfəkkürə olan ehtiyacını ödəyən fəaliyyət növüdür. Akademik D.Lixaçev doğru yazmışdır: «Ədəbiyyatşünaslıq əgər geniş materialı əhatə edirsə, insanın sosial keyfiyyətini inkişaf etdirə bilir. Və bununla da son dərəcə böyük tərbiyəvi əhəmiyyətə malik olur».

K.Talıbzadə ədəbiyyatşünaslığın bu ali, nəcib vəzifəsini, daha dəqiq desək, ədəbiyyatşünaslığın fəlsəfi məğzini düzgün, dərindən başa düşən və ona öz tədqiqatlarında ən yüksək səviyyədə əməl edən alimlərimizdən, ədəbiyyat mütəxəssislərimizdən və nəzəriyyəçilərimizdən biridir. Məhz bü cəhəti onun tədqiqatlarının əhəmiyyətini müasir ədəbi prosesdə yerini təmin etmişdir və etməkdədir. Lakin bu cəhət həm də K.Talıbzadənin simasında, şəxsində təmkinli və düşüncəli bir tənqidçini də görməyə qətiyyən mane olmur və olmamışdır. O, öz naturası etibarilə müasir ədəbiyyatla bağlıdır, müasir ədəbiyyatla, müasir ədəbi təfəkkürlə nəfəs alır, onunla yaşayır, buna görə də o, uzunillik ədəbi fəaliyyəti dövrlərində heç vaxt müasir ədəbiyyatın köklü, aparıcı hadisələrin və meyllərin yanından sükutla keçməmişdir və bu, bizə ondan həm də bir tənqidçi kimi danışmağa kifayət qədər əsas verir. Əslində belə bir cəhət həqiqi ədəbiyyatşünasa xas mənəvi əsaslardan və keyfiyyətlərdəndir. Ədəbiyyatşünas bu sözün həqiqi mənasında elə şəxsdir ki, onun

görüşlərində, fəaliyyətində tarixilik və müasirlik həmişə bir-birindən ayrılmazdır, həmişə üzvi bir vəhdət halında çıxış edir. Məhz belə tipli ədəbiyyatşünas bütün hallarda ədəbiyyat tarixinə müasir konseptual baxışı ifadə edir.

K.Talıbzadənin ciddi və uzunillik tədqiqatının səmərəsi olan bütün monoqrafiyaların məğzində də məhz belə bir baxış ən əsas cəhətlərdən birini təşkil edir.

Lakin bununla belə qeyd etməliyik ki. geniş mənada və ölçüdə ədəbiyyatşünaslıq, xüsusilə ədəbiyyatşünaslığın ədəbiyyat tarixçiliyindən ibarət qolu K.Talıbzadə fəaliyyətinin əsas sahəsi olaraq qalır. Ədəbi irsi öyrənmək istiqamətində milli ədəbiyyatşünaslığın ən yaxşı təcrübəsi və ənənələri əsasında tərbiyələnən və yetişən K.Talıbzadə 50-ci illərdən sonrakı bütöv bir mərhələdə bu təcrübələrin və ənənələrin daha da inkişaf edib zənginləşməsinə, dərinləşməsinə var qüvvə ilə çalışmışdır. Ədəbiyyatşünaslıqda yeni metodoloci istiqamətlərin təşəkkülünə təsir göstərmişdir.

K.Talıbzadənin «Abbas Səhhət» monoqrafiyası ədəbiyyatşünaslığın ciddi elmi əsərlərindən sayılmağa layiqdir. Əvvələn, burada A.Səhhətin həyatı və yaradıcılığı ilk dəfə monoqrafik planda tədqiqata cəlb edilir, zəngin ədəbi-tarixi, faktiki material və sənədlər, müasirlərinin xatirələri əsasında şairin həyat yolu, ədəbi irsi öyrənilirdi. İkincisi, o, Azərbaycan ədəbiyyatşünaslığında XX əsr romantizminin görkəmli nümayəndələrindən biri olan A.Səhhət haqqında birinci monoqrafiya idi. Müəllifin bu mövzuda ilk monoqrafiyasını yazması böyük ədəbiyyatşünas M.Arifin tövsiyəsi ilə bağlıdır. K.Talıbzadə 1945-ci ildə Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasına daxil olarkən o vaxt İnstituta rəhbərlik edən M.Arif onun namizədlik dissertasiyası mövzusunu A.Səhhətin həyatı və yaradıcılığı kimi müəyyən etmişdir. Bundan əvvəl isə, yəni tələbə ikən K.Talıbzadənin «M.Hadi və Azərbaycan romantizmi» mövzusunda diplom işi yazdığını və müdafiə etdiyini bilirik. Deməli, K.Talıbzadə yeni mövzuya müəyyən dərəcədə hələ tələbəlik illərində artıq hazır olmuşdur. Bu barədə müəllif sonralar belə yazmışdır: «Səhhət də XX əsrin romantiklərindən idi. Odur ki, dərhal razılıq verdim. Həvəslə işə girişdim. Aylarla arxivlərdən çıxmadım. İllərlə inqilaba qədərki mətbuatın səhifələrini vərəqlədim. Şairin hər yeni əsərini tapdığım gün mənim üçün bir bayrama çevrildi»[1].

Müəllifin həmin dövrlə yaxından tanış olması, böyük və külli miqdarda material toplaması maraqlı və məzmunlu bir monoqrafiyanın yazılması üçün zəruri şərt idi. Lakin o da qeyd olunmalıdır ki, monoqrafiyanın müharibədən sonrakı ədəbiyyatşünaslıq üçün əhəmiyyəti yalnız bu cəhətlə bağlı deyildi. Bundan başqa, digər mühüm bir amil də - A.Səhhətin şəxsində gənc tədqiqatçının milli romantizmin çox görkəmli bir nümayəndəsini görməsi də burada həlledici rol oynayırdı. Bu faktın özü, yəni monoqrafiyada romantizmin əsas şəxsiyyətlərindən birinin yaradıcılıq irsinə müraciət olunması faktı həm problem, həm də ədəbi-tarixi baxımdan çox mühüm əhəmiyyətə malik idi. Monoqrafiya ilk dəfə 1955-ci ildə, ikinci dəfə isə 1986-cı ildə çapdan çıxmışdır. Lakin bundan əvvəl K.Talıbzadə görkəmli romantik şairin yaradıcılığını onun bircildlik «Əsərləri»nə yazdığı geniş müqəddiməsində, habelə bir sıra məqalələrində işıqlandırmışdı. K.Talıbzadənin monoqrafiyada A.Səhhətin poeziyasına verdiyi geniş və müfəssəl təhlil çox mühüm bir cəhəti ilə-bilavasitə şairin poeziyasında əks olunmuş, onun mənəvi aləmini göstərməsiilə seçilirdi.

Hələ ilk monoqrafiya üzərində işlədiyi dövrdə K.Talıbzadə müəyyən mənada XX əsrin başlanğıc dövrü ədəbiyyatının tədqiqatçısı kimi ixtisaslaşırdı. Belə ki, çox çəkmir, onun Qorki və Azərbaycan ədəbiyyatı mövzusunda elmi-tədqiqi məqalələri tez-tez mətbuatda dərc olunur; bunların ardınca isə sovet ədəbiyyatşünaslığında o illərdə birinci dərəcəli əhəmiyyət kəsb edən problemə həsr olunmuş «Qorki və Azərbaycan» monoqrafiyası çapdan çıxır. (Azərbaycan dilində - 1959; Rus dilində - 1970;)

K.Talıbzadənin monoqrafiyası ədəbiyyatşünaslığın çox aktual və zəruri bir probleminin hərtərəfli tədqiqi nöqteyi-nəzərindən ciddi tədqiqat əsəri hesab edilə bilər. Bu əsərə qədər də Qorkinin Azərbaycanla əlaqəsi, Qorki ənənələrinin rolu milli ədəbi-nəzəri fikrimizdə müşahidə edilmiş və qoyulmuşdur. Məsələn, M.Arif, M.Rəfili. M.J.Cəfərovun məqalələri qeyd oluna bilər. Azərbaycan tənqidinin təcrübəsinə və müəyyən nəticələrinə əsaslanaraq K.Talıbzadə isə problemi xüsusi şəkildə tədqiq edir, Qorkinin Azərbaycanla, ədəbiyyatımız, mədəniyyətimiz və ədəbi fikrimizlə yaradıcılıq əlaqələrini hərtərəfli və əhatəli şəkildə nəzərdən keçirərək araşdırırdı. K.Talıbzadə monoqrafiyasının dəyəri və əhəmiyyəti də bunda idi. Təsadüfi deyil ki, bu əsərdən sonra Qorki və Azərbaycan mövzusunun ayrı-ayrı problemlərinə ədəbiyyatşünaslıqda bir sıra tədqiqatlar həsr edildi.

* * *

Ədəbiyyatşünas kimi K.Talıbzadənin həyata keçirdiyi çoxcəhətli tədqiqat vəzifələri sırasında, şübhəsiz, onun milli tənqidin tarixini yaratmaq sahəsindəki xidməti, bu istiqamətdə apardığı uzunillik tədqiqatları xüsusi və ayrıca qeyd olunmağa layiqdir. O, müasir ədəbiyyat elmimizdə milli tənqidin sistemli

[1] Talıbzadə K. Seçilmiş əsərləri. – Bakı: 1994, s. 185.

tarixini yazmış və bu mövzuda fundamental tədqiqat əsəri nəşr etmiş birinci müəllifdir. Bu mövzuda doktorluq dissertasiyası müdafiə edən (1965) K.Talıbzadənin problemə aid xeyli məqaləsi, nəhayət, 1966-cı ildə «XX əsr Azərbaycan ədəbi tənqidi» kitabı nəşr olmuşdur. Sonrakı illərdə də K.Talıbzadənin ədəbi tənqidin tarixi və nəzəriyyəsi ilə məşğul olduğunu görürük. Hətta bir müddət Ədəbiyyat İnstitutunda onun rəhbərliyi altında ədəbi tənqidin tarixi və nəzəriyyəsi şöbəsi yaradılmış və fəaliyyət göstərmişdir. Eyni zamanda o, bu mövzunu məqalələrində, ayrı-ayrı tədqiqatlarında da ardıcıl davam etdirmişdir. «Ədəbi tənqid haqqında qeydlər» kitabı (1967) bütövlükdə müasir tənqidin vəziyyətinə və problemlərinə həsr olunmuş məqalələrdən ibarətdir. «Ədəbi irs və varislər» (1974), «Sənətkarın şəxsiyyəti» (1978), «Tənqid və tənqidçilər» (1989) kitablarında, məqalələr toplularında da ədəbi tənqidin tarixi və nəzəriyyəsi mühüm problemlərdən birini təşkil etdiyini deməliyik. Nəhayət, 1966-cı ildə nəşr olunmuş kitabı əsaslı şəkildə işləyərək, onu yeni materiallarla daha da zənginləşdirərək, strukturunda və nəzəri təsnifatında zəruri dəyişikliklər apararaq onu 1984-cü ildə «Azərbaycan ədəbi tənqidinin tarixi (1800-1920)» adı ilə çap etmişdir. Kitab həmin ildə Respublika Dövlət mükafatına layiq görülmüşdür. Maraqlıdır ki, bu kitabdan sonra da K.Talıbhadə tənqid mövzusundan, tənqid tarixi problemindən ayrılmamışdır və bir çox məqalələrində bu istiqamətdəki tədqiqatı müvəffəqiyyətlə davam etdirmişdir.

Bir sözlə, görkəmli alim təxminən otuz ildən çoxdur ki, bu problemlə məşğuldur, tədqiqatlarını əsasən bu istiqamətdə aparır və son illərin hadisələri də sübut edir ki, K.Talıbzadənin bu tədqiqat yolu düzdür, səmərəli və perspektivlidir.

Beləliklə, K.Talıbzadə tənqidin bütövlükdə tarixini yazdı, yəni ədəbi tənqidi sistemli tədqiq etdi və bununla da ədəbiyyat tarixi elminin çox vacib və geniş, fundamental vəzifələrindən birinin həllini gerçəkləşdirdi. Belə ki, 60-cı illərdə nəşr olmuş üççildlik «Azərbaycan ədəbiyyatı tarixi» əsərində ədəbiyyatın digər əsas canrları ilə bərabər və onlarla eyni səviyyədə ədəbi tənqidin də burada ayrıcı və xüsusi şəkildə təmsil olunduğunu görə bilirik. Üççildlikdə M.F.Axundovun tənqidi, XX əsrin əvvəllərində ədəbi tənqidin yaranması və milli ədəbi prosesdə bərqərar olması kimi köklü bir məsələ izah olunurdu. Ədəbiyyat tarixinin bu bəhsini isə K.Talıbzadə yazmışdı. Onun oçerkində yığcam, lakin əhatəli şəkildə əsrin əvvəllənrində ideya axtarışları və cərəyanları, ədəbiyyatda yeni məzmun və forma uğrunda mübarizəsi, ədəbiyyatın ictimai fikir kimi fəallaşmasında tənqidin rolu və s. çox mühüm məsələlər işıqlandırılırdı. Elə bu illərdə bu istiqamətdə elmi axtarışlarını genişləndirərək K.Talıbzadə XX əsr ədəbi tənqidinin tarixi üzərində tədqiqat işini intensiv şəkildə davam etdirir. Çox çəkmir ki, XX əsr ədəbi tənqidini bütöv, sistemli tarixini yazıb tamamlamağa nail olur. XX əsrin əvvəlləri üzərində əsaslı və geniş duraraq K.Talıbzadə bu dövrün tənqidini, müfəssəl və sistemli şəkildə təmsil edir, onun nəzəri-məfkurəvi və estetik təsnifatını verirdi: professional tənqidin inkişafında F.Köçərli, Ə.Hüseynzadə, Ə.Ağayev, .A.Sur və başqa tənqidçilərin, ideoloqların rolunu müəyyənləşdirirdi. Realist tənqidlə yanaşı bu dövrdə ədəbi tənqidin xüsusi. tipoloci cərəyanı olaraq meydana çıxan romantik tənqidin yaranmasını elmi cəhətdən əsaslandırmaq, bu tənqidin ideya və estetik prinsiplərini, yaradıcılıq təcrübəsini təhlil etmək də K.Talıbzadənin qarşısında əsas tədqiqat vəzifələrindən biri səviyyəsində dayanırdı. Və demək lazımdır ki, romantik tənqid cərəyanının təhlili kitabın çox güclü tərəflərindən birini təşkil edirdi.

Milli tənqidin tarixini təhlil edərkən K.Talıbzadə ancaq tənqidin təcrübəsi ilə məhdudlaşmırdı, yəni tənqidi ədəbi prosesdən, ədəbiyyatın özündən, sosial həyatın kəsgin məsələlərindən ayırmırdı, əksinə, o, daha çox və əhatəli dərəcədə tənqidi məhz ictimai-sosial amillər kontekstində nəzərdən keçirir və bu əsasda onun problemlərini müəyyənləşdirirdi. Tənqid vasitəsilə müəllif ədəbiyyata nəzər salır, dövrün ədəbi prosesini əhatə etmiş olurdu. Və belə təhlil üsülu tənqidin ədəbi-tarixi prosesdə iştirakının geniş, əhatəli mənzərəsini yaratmağa imkan verirdi.

"Azərbaycan ədəbi tənqidinin tarixi" əsəri, hər şeydən əvvəl, ədəbiyyat tarixi və nəzəriyyə tarixi arasındakı münasibətlərin açılıb göstərilməsi baxımından qiymətli və diqqətəlayiq tədqiqat sayılmalıdır. K.Talıbzadə müasir ədəbiyyatşünaslığımızda xalqın ədəbi-estetik fikir tarixinin, ədəbi tənqid tarixinin tədqiqatı ilə ardıcıl və fəal məşğul olan alim kimi tanınmışdır. O, ədəbiyyat tarixi və nəzəriyyəsinin başqa sahələri və problemləri ilə məşğul olur. Ancaq bununla belə tənqid tarixi və nəzəriyyəsi onun elmi fəaliyyətinin əsas problemi və istiqamətidir. O, Azərbaycan ədəbi tənqidinin tarixini yaratmış və bununla da müasir ədəbiyyatşünaslıqda çox vacib bir elmi məktəbin inkişafına əsaslı təsir göstərmişdir. Bu kitab ilk nəşr olunduğu vaxtda etiraf etmək lazımdır ki, ədəbiyyatşünaslıq hələ tənqid tarixi ilə ardıcıl məşğul olmurdu; bu sahədə ancaq bəzi ilk təşəbbüslər vardı. Ədəbiyyatşünaslıq tənqid tarixinin ancaq bəzi görkəmli hadisələrini və problemlərini öyrənməklə kifayətlənirdi. Tənqid tarixini yaratmaq, bir proses halında onu tarixi inkişafda tədqiq etmək elmi ədəbiyyatşünaslığın diqqətindən kənarda qalırdı. K.Talıbzadə əsəri ilə ədəbiyyatşünaslıqdakı bu boşluğu aradan qaldırmaqla yanaşı həm də bu sahədəki tədqiqat təcrübəsini daha da inkişaf etdirdi. Ədəbiyyatşünaslıqda müəyyən bir tədqiqat istiqamətini təmin etdi. Buna görə də K.Talıbzadənin kitabı hələ ilk nəşri dövründə ədəbiyyatşünaslığın ciddi nailiyyəti olaraq qarşılandı. Bu kitab

tənqidin tarixi elmi istiqamətini müasir ədəbiyyatşünalığın əsas sahəsinə çevirdi, tənqidşünaslığı yaratdı. M.Arif əsərin elmi yeniliyini və əhəmiyyətini, onda mürəkkəb bir tədqiqat vəzifəsinin yerinə yetirildiyini göstərərək yazmışdır: «Bu əsərin şəksiz qiyməti ondadır ki, özünün elmi münasibəti ilə bu tənqidin ədəbi həyatdakı tarixi yerini inandırıcı şəkildə təyin edir, onun nailiyyətlərini Azərbaycanda ədəbi-tənqidi fikrin sonrakı inkişafı ilə əlaqələndirir. Talıbzadənin kitabı öz tarixiliyi, bütövlüyü və elmi prinsipiallığı ilə fərqlənir».

Şübhəsiz, monoqrafiyasının çox müsbət və qiymətli tərəflərindən biri müəllifin öz qarşısında mürəkkəb və çətin vəzifəni elmi cəhətdən tədqiq etməsindən, milli tənqidi tarixi bir hadisə olaraq təqdim etməsindən ibarətdir. Buna uyğün olaraq müəllif əsərdə estetik fikrin, ədəbiyyat haqqında nəzəriyyənin, tənqidin Azərbaycan ədəbiyyatının çox güclü və özünəməxsus bir sahəsini, canrını təşkil etdiyini, milli tənqidimizin tarixi inkişaf xüsusiyyətlərini və mərhələlərini, ədəbiyyatın tərəqqisində, xalqın mənəvi və estetik düşüncəsinin formalaşmasında fəal rolunu göstərirdi . Kitaba məzmunlu bir ön sözü yazmış ədəbiyyatşünas Y.Qarayev düzgün qeyd edibdir ki, burada tənqid "xalqın ictimai fikir və vətəndaşlıq tarixinin fəal bir ədəbi və publisist təzahür sahəsi"[2] kimi tədqiqata cəlb olunmuşdur. Bu vəzifə öz növbəsində tədqiqatın elmi istiqamətini, strukturunu və metodologiyasını da müəyyənləşdirmişdir. Milli tənqidin tarixi kökləri, X!X əsrin tənqidi, onun təşəkkülü və məktəb səviyyəsinə yüksəlməsi, nəhayət, XX əsrin əvvəllərində tənqidin ədəbi prosesdəki iştirakı və mövqeyi, tənqidin əsas ideya-metodoloci cərəyanları monoqrafiyanın müxtəsər problematikası və elmi strukturu belədir. Deməliyik ki, monoqrafiyanın elmi strukturunun bu cür təyin olunması onun materialının mürəkkəbliyi və çoxcəhətliliyi ilə - XIX-XX əsrlər ədəbi-tarixi prosesinin xüsusiyyətləri ilə şərtlənir.

Lakin həmin əsrlərdə tənqidin bir çox cəhətdən yeni şəkildə və funksiyada meydana çıxmasını sübut üçün müəllif ilk növbədə qədim və orta əsrlər Azərbaycan ədəbi fikrinin sistemli bir hadisə kimi inkişafı faktına diqqəti cəlb edir və bununla da estetik fikrimizin bu mərhələsini daha dərindən və hərtərəfli öyrənmək vəzifəsini müəyyənləşdirir. Kitabın bu ideyasını son dərəcə qiymətli və perspektivli hesab etmək olar, hətta müəllifin bu əsrlərin ədəbi fikri üzərində müxtəsərcəsinə dayanıb izah etməsi, Şərq və Azərbaycan ədəbi-estetik irsinin bu əsrlərdə necə zəngin və bütöv bir estetik sistem olmasını aydınlaşdırması mühüm metodoloci əhəmiyyət kəsb edir.

M.F.Axundov tənqidinin,demək olar ki, heç bir mühüm, əsas məsələsi monoqrafiyada müəllif nəzərindən qaçmayıb: əksinə, o, məsələlərin təxminən hamısını əhatə etməyə, onlara elmi münasibət bildirməyə çalışır və bu məqsədinə nail olur. Lakin həmin məsələlər içərisində bir sıra elə ümumiləşdirici, konseptual xarakterli məsələlər vardır ki, onları konkret, müfəssəl aydınlaşdırmağa, geniş ədəbi-tarixi fakt və materialın təhlili ilə şərh etməyə çalışır ki, bununla da öz tədqiqatını əhəmiyyətli dərəcədə dərinləşdirməyə nail ola bilir. Daha doğrusu, müəllif sübut edə bilir ki, M.F.Axundovun tənqidi yalnız ayrı-ayrı ədəbi məsələlərin şərhindən ibarət bir yaradıcılıq hadisəsi deyildir, bəlkə əksinə, bu tənqid öz daxili məzmunu, öz nəzəri əsası etibarilə bütöv bir sistemdir və o da diqqətə layiqdir ki, bu sənət nəzəriyyəsinin əsas, mərkəzi məsələsi realizm problemidir, realizmin nəzəri cəhətdən milli ədəbi prosesdə, Yaxın Şərq estetik fikrində əsaslandırmaq vəzifəsidir. Eyni zamanda tədqiqatçı Axundov tənqidinin bəzi mübahisəli müddəaları üzərindən də sükutla keçmir, əksinə, bunları da tədqiqata cəlb edir. Bu barədə fikirləri, mülahizələri dəqiqləşdirir, dərinləşdirir.

Axundovdan sonrakı dövrlərdə Azərbaycan ədəbi tənqidinin, heç şübhəsiz, ən yüksək və zəngin inkişaf mərhələsi XX əsrin əvvəlləridir. Vaxt etibarilə qısa bir zaman məsafəsini, yəni 1900-1920-ci illəri əhatə etsə də, öz məzmunu, öz xarakteri, həll etdiyi yaradıcılıq məsələlərinin əhatəliyi və mənası etibarilə, ideya-estetik meylləri və cərəyanlarına görə bu illər milli ədəbi tənqidin daha mürəkkəb və dinamik mərhələsidir. Həmin mərhələdə tənqidimiz daha mürəkkəb yaradıcılıq məsələlərinin həllinə girişmiş, öz dövrünün ideya-estetik axtarışlarında və mübarizələrində fəal, çoxcəhətli şəkildə iştirak etmişdir.

K.Talıbzadə kitabının çox qiymətli məziyyətlərindən biri də elə budur ki, öz təhlilləri ilə və bu təhlillərə cəlb etdiyi zəngin, müxtəlif ədəbi-tarixi material vasitəsi ilə tənqidin ədəbi-bədii prosesdəki fəal, canlı iştirakını, tənqidi təfəkkürdə gedən, mürəkkəbləşən mübarizələri, müxtəlif, əks estetik və ictimai baxışların üzləşməsini bütün təfsilatı ilə, geniş və ətraflı şəkildə açıb göstərməyə nail olmuşdur.

XX əsr tənqidinin həyata keçirdiyi vəzifələr böyük və geniş yaradıcılıq vəzifələri olmuşdur. K.Talıbzadə bunu həm realist, həm də romantik tənqidin fəaliyyətinin, ideya-estetik problematikasının izahı və təhlili ilə qənaətbəxş səviyyədə hiss etdirə bilmişdir. Ancaq bu vəzifələr arasında daha mühüm və əhəmiyyətli olanları da vardır ki, müəllifin həmin vəzifələri monoqrafiyanın mərkəzi mövzusu etməklə onun tədqiqat ideyasını əhəmiyyətli dərəcədə dərinləşdirmişdir. Realizm nəzəriyyəsini M.F.Axundovun bu sahədəki ənənələrini inkişaf etdirmək, tənqidi realizm konsepsiyasını işləyib hazırlamaq, Azərbaycan

[2] Qarayev Y. Tənqidimizin tarixi // Talıbzadə K. Azərbaycan ədəbi tənqidinin tarixi. – Bakı:1984, s.4

ədəbiyyatının qabaqcıl xüsusiyyətlərini izah etmək, romantizmin prinsiplərini elmi cəhətdən əsaslandırmaq tənqidin yerinə yetirdiyi ümdə vəzifələrdəndir. İkinci mühüm ideya-metodoloci vəzifə tənqidin milli ədəbi tarixi prosesin elmi konsepsiyasını yaratmaq sahəsindəki fəaliyyətidir. Monoqrafiyada K.Talıbzadə bu vəzifə üzərində də ətraflı dayanır, zəngin faktiki materialın təhlili ilə milli ədəbiyyatın tarixini yaratmaq ideyasını XX əsr qabaqcıl tənqidinin əsas tədqiqat vəzifələrindən biri kimi aydınlaşdırır.

«Azərbaycan ədəbi tənqidinin tarixi» monoqrafiyasının əsas elmi məzmunu və problematikası belədir. Bu deyilənlərdə müəllifin necə geniş, əhatəli, qollu-budaqlı bir problemi işıqlandırdığını göstərir. Lakin bütün bunlarla yanaşı Azərbaycan ədəbi tənqidinin tarixi varlığını meydana çıxarmaq, təşəkkülünü və inkişaf yolunu əks etdirmək monoqrafiyanın ən əsas elmi-nəzəri dəyəridir. Tənqid, estetik fikir - Azərbaycan ədəbiyyatının çox güclü, ayrılmaz tərkib hissəsidir. - K.Talıbzadə kitabının əsas tədqiqat ideyasının, nəticələrindən birini belə təyin etmək mümkündür. Müəllif tədqiqata cəlb etdiyi külli miqdarda materialın təhlili ilə, kitabın bütün tədqiqat gücü və miqyası ilə sübut edə bilir ki, Azərbaycan ədəbiyyatında tənqid, estetika və ədəbiyyat nəzəriyyəsi XX əsrdən əvvəl də nəinki mövcud olmuş, həm də bu fikir öz dövrünün qabaqcıl, bədii təcrübəsi və elmi-nəzəri fikri səviyyəsində dayanaraq ədəbiyyatın inkişafına, onun vəzifəsinin həyata keçirilməsinə fəal təsir göstərə bilən bir yaradıcılıq amili olmuşdur.

Tarixilik, tədqiqat ideyasının əhatəliliyi və ideyanın konkret ədəbi-tarixi material və kontekstdə açmaq, inkişaf etdirmək, nəzəri ümumiləşdirmə dərinliyi, milli tənqidin inkişaf mərhələlərini qabaqcıl dünya ədəbi-fəlsəfi fikri ilə əlaqədə izləmək - K.Talıbzadənin monoqrafiyasını müasir ədəbiyyatşünaslığın ciddi nailiyyəti kimi qiymətləndirməyə əsas verir.

* * *

Beləliklə, hər cür əsasımız vardır ki, K.Talıbzadənin ədəbi tənqid tarixinin və nəzəriyyəsinin görkəmli mütəxəssislərindən olduğunu, bu sahədə özünün diqqətəlayiq əsərləri, bu əsərlərdə əldə etmiş olduğu elmi nəticələri ilə müasir ədəbiyyatşünsalığımızda xüsusi tədqiqat istiqaməti yarada bildiyini təsdiq edək. Həm də yalnız «Azərbaycan ədəbi tənqidini tarixi» monoqrafiyası ilə yox, başqa əsərləri də bu nəticəyə gəlməyə əsas verir.

Təniqidin tarixi onun müasir dövründən, müasir inkişafından və problemlərindən ayrılmazdır. Azərbaycan tənqidinin də son iki əsr müddətində tarixi onun bütün mərhələ və cərəyanlarının varislik vəhdəti və əlaqəsi bunun təsdiqidir. Akademik K.Talıbzadənin kitablarının birini «Ədəbi irs və varislər» /1974/ adlandırılması da təsadüfi deyil, tənqid prosesini tarix və müasirliyin vəhdətində təhlil etməsinin göstəricisidir və bu bizə haqq verir ki, K.Talıbzadənin ədəbi tənqidimizin tarixi ilə ardıcıl və sistemli məşğul olduğunu təsdiq edək. Belə ki, alim əllinci illərin axırlarından, xüsusən də 60-70-ci illərdə müasir tənqid haqqında müntəzəm olaraq problem icmal məqalələri ilə mətbuatda çıxış edərək tənqidin cari meyllərini, qayğı və ehtiyaclarını, tənqidin yaradıcılıq vəzifələrini təhlildən keçirmiş, tənqidi fikrin hansı istiqamətdə dəyişməsini, dərinləşməsini göstərmişdir. Tənqid necə olmalıdır, əsas vəzifə və rolu nədən ibarətdir, müasir ədəbi və sosial prosesdə tənqidin yeri necədir? K. Talıbzadənin icmallarda, problem məqalələrdə üzərinə düşündüyü, təhlil və tədqiq etdiyi məsələləri belə təyin etmək olar. Müasir tənqidin ünvanına «bizdə tənqid yoxdur» , «bizdə tənqid geridə qalır, tənqid ölgündür» və s. bu kimi vaxtaşırı mətbuatda səslənən maksimalist hökmlərin və nəticələrin əsassız olduğunu, bu cür qənaətlərin ədəbi-bədii tənqidin real vəziyyətinə və perspektivlərinə bəsit və hikkəli münasibətdən doğduğunu göstərir. Bununla yanaşı K.Talıbzadə məqalələrində tənqid haqqında onun yüksək vəzifəsi və rolu haqqında dəqiq fikirlər söyləyir, aydın nəticələr çıxarır: «Tənqid ədəbiyyatın çox çətin, geniş dünyagörüş, yüksək nəzəri hazırlıq və mədəniyyət tələb edən bir sahəsidir. Bütün bu xüsusiyyətlərə malik hazırlıqlı tənqidçi uzun müddətə yetişir, formalaşır». «Tənqidçi nadir istedada, gözəlliyi, sənəti duya bilən hisslərə, ədəbiyyatı sevən böyük bir qəlbə malik olmalıdır. Bütün bunlarla yanaşı həqiqi tənqidçi dövrünün ən irəlidə gedən, geniş dünyagörüşə sahib bir adamı olmalı, dövrünün hakim görüşlərini izah və inkişaf etdirməyi bacarmalıdır.». «Tənqidçi bədii əsərin əsl poetik gözəlliyini meydana çıxarmalıdır». «Nəzəri hazırlığın zəifliyi nəticəsidir ki, yazılan tənqidi məqalələrin çoxu təəssürat xarakteri daşıyır». «Ədəbi tənqid ədəbiyyatla yanaşı bədii əsər kimi cəmiyyətə, ədəbi zövqün inkişafına, ictimai fikrin tərəqqisinə xidmət edir». «Tənqid əsər haqqında təəssürat deyildir, oxucu və yazıçı rəyi də deyildir. Tənqid elmi şəkildə müasir ədəbiyyatın qanunauyğunluqlarını kəşf etməkdir». Alimin ayrı-ayrı illərdə yazdığı müxtəlif məqalələrindən gətirilən bu sözlər, bu qənaətlər və mülahizələr, söz yox ki, məlum və qəbul olunmuş həqiqətlərdir. Ancaq onlar K.Talıbzadənin məqalələrində tövsiyə, öyüd-nəsihət olaraq qalmır, alim bu qənaətə və mülahizələrə tənqidin sənət kimi, fikir və təfəkkür sənəti kimi dərkindən və təhlildən gəlib çıxır, ədəbi prosesə analitik baxışdan onları əxz edir və buna görə də onun məqalələrində tənqid barədə nəzəri fikir və mülahizələr mücərrəd səslənmir, mücərrəd təsir bağışlamır. K.Talıbzadənin tənqidin mahiyyəti, spesifikası barədə fikirlər silsiləsindən bir fikri də - tənqidin bədii hadisə olması, yaradıcılıq aktı olması barədə fikrini də qeyd etmək vacibdir, çünki bu fikir də onun tənqid barədə

çoxillik fikri-hissi axtarışlarından, tənqidin mürəkkəbliyini idrakdan doğmuş, hasil olmuş həqiqətlərdəndir. O, düzgün olaraq belə hesab edir ki, tənqid ancaq izah və şərh etmir, həm də yaradır; tənqid də yaradıcılıqdır; özünəməxsus sənətdir. Bu məqamda onun, məsələn, bir münasibətlə söylədiyi mübahisəsinə də bəraət qazandırmaq lazım gəlir. K.Talıbzadə hətta «ədəbi tənqid» anlayışını bir o qədər də dəqiq saymır, bunun əvəzində «bədii tənqid» anlayışını təklif edir; belə hesab edir ki, ədəbiyyatın predmeti insan, insanın mənəvi və ictimai varlığıdır. Və buna görə də həqiqətən «zəmanəmizdə tənqidin əhatə etdiyi məzmun xeyli zənginləşmiş, mürəkkəbləşmişdir». Şübhəsiz ki, bu belədir. Böyük tənqid bütün dövrlərdə insanın xüsusi, özünəməxsus idrakı deməkdir, sənət vasitsi ilə, bədii əsərin ideyası və materialı, bədii aləmi vasitəsi ilə dərki deməkdir. Məhz buna görə də tənqid-müasir sənətin fəlsəfəsidir. O da çox səciyyəvidir ki, tənqidin bu ali missiyasından, tənqidçi mədəniyyətindən və şəxsiyyətindən, tənqidçi məsuliyyətindən və mütəfəkkirliyindən danışarkən K.Talıbzadə ilk növbədə M.F.Axundov, F.Köçərli, Ə.Hüseynzadə kimi tənqidçilərin irsini yada salır, milli tənqidin bütün sonrakı inkişafının bu irs üzərində yüksəldiyini mümkün olduğunu göstərir. Alimə görə bu tənqidin gücü onun fikrinin dərinliyində və gerçəkliyində, tərəqqi işinə xidmət etməsindədir. Bir ədəbiyyatşünas və tənqidçi kimi K.Talıbzadə məşhur tənqidçilər nəslinin əhatəsində, M.Arif, M.Rəfili, M.Hüseyn, M.Jəfər, M.İbrahimov, J.Jəfərov, Ə.Sultanlı, H.Araslı, F.Qasımzadə, , Ə.Ağayev, O.Həsənov, Ə.Mirəhmədov kimi müxtəlif tənqidçilərin fəaliyyət göstərdikləri, S.Vurğun kimi işıqlı bir şəxsiyyətin tənqidlə də ehtiraslı məşğul olduğu, böyük sənət konsepsiyasını inadla müdafiə etdiyi bir ədəbi epoxada, bir ədəbi prosesdə və hərəkatda yetişmişdir. O, məqalələrində bu tənqidçilərdən, ədəbiyyat alimlərindən həmişə xüsusi bir məhəbbətlə, onların hər birindən şəxsiyyət səviyyəsində danışır, bu tənqid irsinin tarixi rolunu, çətin bir recim şəraitində yaranmasına baxmayaraq onun böyük tənqidə məxsus məna və fikir aydınlığını, estetik və bədii idrak gözəlliyini, sənətə qızğın və təmənnasız xidmət hissini, ən ümdəsi isə vətəndaşlığı və cəsarəti, elmiliyi və ciddiyyəti qoruyub saxladığını göstərir. Bu bizcə, K.Talıbzadənin ədəbi tənqidi öyrənmək sahəsindəki fəaliyyətinin ən mühüm dəyərlərindən və yekunlarından biridir. Müasir tənqidçilər arasında K.Talıbzadə bir adı - Məmməd Arifin adını xüsusi bir vurğu ilə çəkir, bu tənqidçinin bütöv bir dövrün ədəbi prosesində və hərəkatındakı misilsiz xidmətlərini araşdırır. K.Talıbzadə doğru göstərir ki, M.Arif «yazıçı və alimlərimizin böyük bir nəslinin müəllimi olmuşdur». Özündən əvvəlki nəslin işinə və xatirəsinə, irsinə və ənənəsinə bu dərin və səmimi ehtiram hissi hər tədqiqatçı üçün olduğu kimi, K.Talıbzadə tədqiqatlarının da dəyişməz mənəvi keyfiyyətlərindəndir. Buna inanmaqdan ötrü isə müəllifin «Tənqidimiz haqqında qeydlər», «Ədəbi irs və varislər», «Tənqid və tənqidçilər» kitablarını bir də oxumağı tövsiyə etmək olar. Bu kitablarında K.Talıbzadə müasir tənqidin ən canlı, ən mürəkkəb məsələlərinə müraciət etmişlər. Lakin elə təsəvvür yaranmasın ki, K.Talıbzadə tənqidin nəzəriyyəsi ilə məşğul olmaqla kifayətlənmiş tədqiqatçılarımızdandır. Yox, bu qətiyyən belə deyildir. Tənqidin gücü onun birinci növbədə müasir ədəbiyyatı dərketmə və qiymətləndirmə səviyyəsində və məzmunundadır. K.Talıbzadə bu həqiqəti çox gözəl başa düşür və buna görə də tənqidin tarixi ilə yanaşı o, müasir əsərlər haqqında, müasir ədəbiyyat haqqında, müasir yazıçılar haqqında da yazır, bu yol vasitəsi ilə də müasir ədəbi prosesə müəyyən münasibəti - alim və ziyalı münasibətini bildirir. «Yazıçı ideyası və təhkiyə», «Müasir kənd və nəsrimiz», «Azərbaycan» curnalı-1981» və s. məqalələri onun hələ əllinci illərdə yazdığı tənqidi məqalələrinin, məsələn, M.Hüseynin «Səhər» romanı haqqında məqaləsinin davamı kimi qeyd oluna bilər; əsərə ciddi planda, geniş ölçülərlə yanaşmağın, əsəri onun qanunları, materialı və vəzifələri daxilində, əsəri onun konsepsiyasından və mövzusundan çıxış edərək yazıçının üslubu və poetikası işığında hərtərəfli və professional təhlilini verməyin nümunələri hesab etmək olar. Bu məqalələr həm də bunu təsdiq edir ki,tənqidin təcrübəsinə və nəzəriyyəsinə bələdlilik, tənqidin spesifikasını və vəzifələrini dərin anlayış, tənqiddə aydın ideya mövqeyi və dəqiq metodoloci meyarlara yüksək səviyyədə riayət - müasir ədəbiyyat haqqında ümumiləşdirici nəticələr çıxarmağın, cəmiyyətin, insanın həyatında və məişətində, mənəvi aləmində onun barədə yeni fikir söyləməyi; bədiiliyin daxili meyllərini duyumun və duyumu, sezimi sosial-fəlsəfi kateqoriyalarda ifadə etməyin yeganə doğru yoludur. Yalnız onu qeyd etmək istərdik ki, öz fəaliyyəti dövründə akademik Kamal Talıbzadə nədənsə tənqidçilik istedadının və bacarığının bu imkanlarından bir qədər az, müəyyən fasilələrlə istifadə etmişdir.

Akademik Kamal Talıbzadənin çoxcəhətli və uzunillik ədəbiyyatşünaslıq fəaliyyətinin ümumi cizgiləri belədir. Alimin tənqiddə, ədəbiyyat elmində keçdiyi yol ciddi, miqyaslı fundamental tədqiqatlar yoludur, ədəbiyyatşünaslığı yeni ideyalarla, konsepsiyalarla zənginləşdirmək yoludur, ədəbiyyatşünaslığın ali vəzifələrinə xidmət yoludur və varisləri qorumaq, inkişaf etdirmək, dərinləşdirmək yoludur.

Ədəbiyyatşünas olmaq, ədəbiyyatşünaslığı vəzifə və fəaliyyət sahəsi kimi seçmək və bütün ömrü boyu bu vəzifəyə sadiq qalmaq, ona xidmət etmək böyük və şərəfli işdir; bu fikir və təfəkkür fəaliyyətidir, xalqın bədii ədəbiyyatında, sənətində, bədii sözündə, mədəniyyətində ifadə olunmuş mənəvi həyatının tədqiqatçısı olmaq deməkdir. Ədəbiyyatşünas olmaq ədəbiyyatda, poeziyada əks olunmuş insanşünaslıq elmi ilə məşğul olmaq deməkdir, ədəbiyyat vasitəsi ilə, ədəbiyyatın obrazlar, ideyalar, konsepsiyalar aləmi vasitəsi ilə insan

taleyini, insan aləmini idrak və tədqiq etmək deməkdir. Ədəbiyyatşünas olmaq xalqın bədii sözündə təcəssümünü tapmış həyat və dünya fəlsəfəsinin, ictimai fikrinin dərkinə səy göstərmək deməkdir; sənətdəki, poeziyadakı səadət və gözəllik dünyasını insan üçün izah və şərh etmək, bu yol ilə dünyanı yeni bir şəkildə kəşf etmək deməkdir. Ədəbiyyatşünas olmaq nəsillər arasında mənəvi varislik əlaqəsinin qırılmamasına çalışmaq, bəşəri yaddaşı qorumaq, hifz etmək deməkdir, ziyalılığı, maarifçiliyi uca tutaraq nəsillərə aşılamaq deməkdir. Nəhayət, ədəbiyyatşünas olmaq ədəbiyyatın, sənətin varisliyini inkişaf etdirmək, ədəbi dövrlər və mərhələlər arasında bu hissin itməməsinə əmək və qüvvə sərf etmək deməkdir. Azərbaycan ədəbiyyatşünaslıq məktəbinin ən əsas fəlsəfəsi və mənəvi məğzi bunlardan ibarətdir. Kamal Talıbzadə bütün fəaliyyəti boyu, özünün yarım əsrlik tənqidçilik və ədəbiyyatşünaslıq əməyi ilə, yorulmaz və ilhamlı fəaliyyəti ilə ədəbiyyatşünaslığın bu nəcib və yüksək ideallarına xidmət etmişdir. Bütün bunlara əsasən də belə hesab edə bilərik ki, K.Talıbzadənin tədqiqatları milli ədəbiyyat elmimizin, tənqid sənəti nəzəriyyəsinin, ədəbiyyatşünaslığımızın dəyərli fonduna daxildir. Çünki bu əsərlərin, monoqrafiyaların tədqiqat əsasları, mənəvi başlanğıcı sağlam və möhkəmdir, ədəbiyyatımızın fəlsəfi və estetik ənənələrinə güvənir. Dediklərimizə onu da əlavə etsək ki, Kamal Talıbzadə həm də bu müddət ərzində mötəbər elm təşkilatçısı olmuşdur, milli ədəbiyyatşünaslığın, milli filologiya məktəbinin mərkəzi Ədəbiyyat İnstitutunda işləmişdir, burada kiçik elmi işçi və aspirant olmaqdan akademiklik səviyyəsinə qədər yüksəlmişdir, bu institut onun yeganə əsas iş və fəaliyyət yeri olmuşdur, onun divarları arasında ədəbiyyatımızın çoxcildlik tarixləri yazılmış və Kamal müəllim bu işin təşkilində ən fəal alimlərdən biri olmuşdur; iyirmi il institutda direktor müavini vəzifəsində çalışaraq institutun cari və perspektiv tədqiqat vəzifələrini, metodoloci istiqamətlərini hazırlamış, yeni çoxcildlik ədəbiyyat tarixinin elmi konsepsiyasını müəyyənləşdirmiş, institutun potensial intellektual qüvvəsini ədəbiyyatşünaslığın, ədəbi tənqidin miqyaslı nəzəri məsələlərinin əsaslı həllinə doğru yönəltmiş, bir sıra respublika və ittifaq miqyaslı konfransların, məsələn, realizm, romantizm müşavirələrini hazırlamış və keçirmiş, bundan əlavə, çoxlu əsərləri redaktə etmiş, mətnşünas kimi işləmiş, aspirantlar, elmi işçilər yetişdirmiş, bu kollektivdə ədəbiyyat elmimizin perespektiv problemləri, vəzifələri və yolları barədə öz fikir və həyəcanlarını bölüşdürmüş, o halda Kamal müəllimin böyük, çox böyük vəzifələri həyata keçirdiyini və bununla da əsil alim vətəndaşlığı və ləyaqəti nümayiş etdirdiyini, müəllimlərinin yolu ilə getdiyini etiraf etməli oluruq.